AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 28.12.2016 |
| Qeydiyyat nömrəsi | 26-N |
| Adı | Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlamentin təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 30.12.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 380.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201612280026 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 29.12.2016 |

"Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"na uyğun olaraq "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndinə əsasən Kollegiya[1]

**QƏRARA ALIR:**

1. "Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).

3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 28.12.2016-cı il tarixli 26-N nömrəli Qərarı ilə təsdiq edilmişdir.

## Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması.

**1.2. Elektron xidmətin məzmunu:** Bu elektron xidmət vasitəsilə fiziki şəxslər elektron xidmətin abunəçisi olaraq şəxsiyyət vəsiqəsi, ümumvətəndaş, xidməti və ya diplomatik pasportlar, sürücülük vəsiqəsi, ölkə ərazisində daimi və ya müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi, dövlət qeydiyyatına alınmış vətəndaşlıq vəziyyəti aktları və ya notariat qaydasında təsdiq edilmiş etibarnamələrin qüvvədən düşməsi, həmçinin məhkəmə qərarları və əmrləri ilə şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması və bu məhdudlaşdırmanın götürülməsi, hüquqi şəxslər isə ləğv olunmaları ilə bağlı məlumatları əldə edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

1.3.1. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı və 10-cu maddələri;

1.3.2. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 84-1.1-ci maddəsi;

1.3.3. "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;[2]

1.3.4. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.37-ci bəndi;

1.3.5. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 543 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" Əsasnamənin 8-ci və 21-ci hissələri;

1.3.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər* tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 3.12-ci bəndi.[3]

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi.

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Elektron xidmətin icra müddəti istifadəçi tərəfindən tələb olunan məlumatların informasiya

sistemində emalı müddətindən asılıdır.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Fiziki şəxslər elektron xidmətin abunəçisi olaraq şəxsiyyət vəsiqəsi, ümumvətəndaş, xidməti və ya diplomatik pasportlar, sürücülük vəsiqəsi, ölkə ərazisində daimi və ya müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi, dövlət qeydiyyatına alınmış vətəndaşlıq vəziyyəti aktları və ya notariat qaydasında təsdiq edilmiş etibarnamələrin qüvvədən düşməsi, həmçinin məhkəmə qərarları və əmrləri ilə şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması və bu məhdudlaşdırmanın götürülməsi, hüquqi şəxslər isə ləğv olunmaları ilə bağlı SMS vasitəsilə məlumatlandırılır.

**2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi**

**2.1. Elektron xidmətin növü:** İnteraktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** Elektron xidmət ödənişsizdir. Müvafiq mobil operatorlar tərəfindən SMS-in sayına və həcminə uyğun xidmət haqqı tutulur.

**2.3. Elektron xidmətin istifadəçiləri:** Fiziki şəxslər və hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://exidmet.justice.gov.az; dxr.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

**2.5.1. İnternet ünvanı:** http://www.justice.gov.az

**2.5.2. Elektron poçt:** contact@justice.gov.az; notvva@justice.gov.az

**2.5.3. Telefon:** (+99412) 430 09 77 / (+99412) 404 42 81

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Fiziki şəxslərdən fərdi identifikasiya nömrəsi (FİN) və ya şəxsiyyət_vəsiqəsinin nömrəsi, hüquqi şəxslərdən isə vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) tələb olunur.

**3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar**

**3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:** Elektron xidmətdən istifadə üçün sorğu internet saytı vasitəsilə təqdim olunur.

**3.1.1. Sorğunun formalaşdırılması:** Adına mobil telefon nömrəsi (hansı mobil operatorun xidmətindən istifadə edilməsindən asılı olmayaraq) olan istifadəçi elektron xidmətin təqdim edildiyi internet ünvanına daxil olaraq müvafiq pəncərəyə fiziki şəxsdirsə fərdi identifikasiya nömrəsini (FİN) və ya şəxsiyyət vəsiqəsinin nömrəsini (1 -li əlavə), hüquqi şəxsdirsə vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) (2 -li əlavə), mobil telefon nömrəsini, sistemdə olan təhlükəsizlik kodunu daxil edib “Abunə ol” və ya “Abunəni ləğv et” düyməsini vurur. Bundan sonra daxil edilən mobil telefon nömrəsinə SMS vasitəsilə göndərilən kodu açılan yeni pəncərədə qeyd edərək “Təsdiq et” düyməsini vurmaqla sorğunu formalaşdırır.

**3.1.2. Sorğunun qəbulu:** İstifadəçi tərəfindən elektron xidmətin göstərilməsi üçün tələb olunan müvafiq məlumatlar bu reqlamentin 3.1.1-ci yarımbəndinə uyğun olaraq tam və düzgün daxil edildikdə sorğu qəbul edilir və bu barədə bildiriş ekrana çıxır.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** İstifadəçi tərəfindən elektron xidmətin göstərilməsi üçün tələb olunan müvafiq məlumatlar bu reqlamentin 3.1.1-ci yarımbəndinə uyğun olaraq tam və ya düzgün daxil edilmədikdə sorğunun yerinə yetirilməsindən imtina edilir və bu barədə bildiriş ekrana çıxır. Bildirişdə sorğunun qəbulundan imtinanın səbəbləri göstərilir.

**3.2.2. Sorğunun qəbulu:** Sorğu istifadəçi tərəfindən bu reqlamentin 3.1.1-ci yarımbəndinə uyğun formalaşdırıldıqda qəbul olunur.

**3.3. Sorğunun icrası:** Xidmət tam avtomatlaşdırıldığından hər hansı inzibati əməliyyat mövcud deyil.

**3.3.1. İnzibati əməliyyatda iştirak edən digər *dövlət qurumu* haqqında məlumat:** [4]

Yoxdur.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi həyata keçirir.

**3.4.1. Nəzarət forması**: Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.4.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlərin qəbulu, cavablandırılmasının müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və (və ya) məhkəməyə şikayət edə bilər.

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət forması “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

**3.5.3. Şikayətin baxılma müddəti:** İnzibati orqana verilən şikayətə “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 78-ci maddəsinə əsasən 1 ay müddətində baxılır. Məhkəməyə verilmiş şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində müəyyən edilmiş qaydada baxılır.

**“Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament”ə 1 -li Əlavə**
**(Fiziki şəxslər üçün)**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə**




**“Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament”ə 2 -li Əlavə**
**(Hüquqi şəxslər üçün)**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə**




**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201710310020, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 noyabr 2017-ci il**)

**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201710310020, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 noyabr 2017-ci il**) ilə qərarın preambulasında “**Dövlət orqanlarının**” sözlərindən sonra “**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**” sözləri əlavə edilmişdir.

[2] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201710310020, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 noyabr 2017-ci il**) ilə “Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament”inin 1.3.3-cü yarımbəndində “**Dövlət orqanlarının**” sözlərindən sonra “**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin** ” sözləri əlavə edilmişdir.

[3] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201710310020, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 noyabr 2017-ci il**) ilə “Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament”inin 1.3.6-cı yarımbəndində “**Mərkəzi icra hakimiyyəti orqanları**” sözlərindən sonra “**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslər** ” sözləri əlavə edilmişdir.

[4] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201710310020, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 2 noyabr 2017-ci il**) ilə “Mülki dövriyyə nəticəsində baş verən hüquqi hadisələrdən yaranan yeni hüquq və vəzifələr barədə fiziki və hüquqi şəxslərin məlumatlandırılması üzrə inzibati reqlament”inin 3.3.4-cü yarımbəndində “**dövlət orqanı**” sözləri “**dövlət qurumu**” sözləri ilə əvəz edilmişdir.